# Məcburi köçkünlərin sosial şəraitinin yaxşılaşdırılması daim diqqət mərkəzindədir

**Azərbaycan dövlətinin hər zaman mühüm önəm verdiyi məsələlərdən biri də məcburi köçkünlərin sosial şəraitinin yaxşılaşdırılmasıdır. Bu kateqoriyadan olan ailələrin aylıq müavinətlərinin məbləğinin artırılmasına, mənzil problemlərinin həll edilməsinə hər zaman prioritet istiqamət kimi yanaşılıb.**

Məcburi köçkünlərin sosial problemlərinin həllinə yönəlmiş tədbirlər ötən 16 ildə Prezident İlham Əliyevin diqqət və qayğısı nəticəsində uğurla davam etdirilib. Ölkəmizdə sosial rifah halının yüksəlişi, insanların həyat səviyyəsinin yaxşılaşması hələ də doğma torpaqlarının nisgili ilə yaşayan qaçqın və məcburi köçkünlərin timsalında özünü aydın büruzə verir. Ölkə rəhbərliyinin bu qəbildən olan insanlara xüsusi diqqət və qayğısının nəticəsidir ki, məcburi köçkün həyatı yaşayan insanların həyat səviyyəsi, mənzil-məişət şəraitləri əhəmiyyətli dərəcədə yaxşılaşdırılıb. Ölkəmiz MDB, eləcə də Avropa məkanında qaçqın və məcburi köçkünlərin sayına görə ilk yerlərdə qərarlaşır. Buna baxmayaraq, Azərbaycan bu kateqoriyadan olan insanların həyat səviyyəsinin yaxşılaşdırılması baxımından ən fəal siyasət yürüdən və yüksək nəticələr əldə edən ölkədir. Qaçqın və məcburi köçkünlərin yaşayış səviyyəsinin daha da yaxşılaşdırılması dövlətin həyata keçirdiyi siyasətin əsas istiqamətlərindən birini təşkil edir və göstərilən sahədə uğurlu nəticələrin əldə olunduğunu çoxsaylı faktlar təsdiqləyir.

Prezident İlham Əliyev oktyabrın 18-də Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sədri Rövşən Rzayevi qəbulu edərkən məcburi köçkünlərin problemlərinin həlli istiqamətində bu il də çox böyük işlərin nəzərdə tutulduğunu xatırladaraq deyib: “Məcburi köçkünlərin problemlərinin həlli istiqamətində bu il də çox böyük işlər nəzərdə tutulur. Bu işlərin bir hissəsi artıq görülüb. Bu yaxınlarda “Qobu Park-2” yaşayış kompleksinin açılışını qeyd etdik. Bu kompleksdə 1300 qaçqın ailəsi yerləşəcək. Kompleksin açılışında gördüm ki, ən yüksək standartlar tətbiq olunur. Çox gözəl, rahat evlər, ictimai zonalar, məktəb, uşaq bağçası, supermarket, tibb məntəqəsi, yəni, yaşayış üçün bütün şərait yaradılıbdır. Sevindirici haldır ki, “Qobu-1” və “Qobu-2” komplekslərinin tikintisi sırf özəl sektor tərəfindən təmin edildi. Hazırda tikilməkdə olan “Qobu-3” də özəl sektorun vəsaiti hesabına inşa edilir.




Beləliklə, təqribən, 4 minə yaxın köçkün ailəsi Qobu qəsəbəsində ən müasir standartlara cavab verən mənzillərlə təmin ediləcəkdir”.

Dövlətimizin başçısı daha sonra sözügedən açılış zamanı sahibkarlara da bu işlərə qoşulmalarını tövsiyə etdiyini və iş adamlarının bu çağırışa müsbət yanaşdıqlarını diqqətə çatdırıb. Ölkə rəhbəri köçkünlərin problemlərinin həllinin ümumxalq məsələsi olmasının zəruriliyini də vurğulayıb: “Düzdür, əsas yükü dövlət öz üzərinə götürübdür. Bu günə qədər yüzdən çox şəhərciyin tikintisi dövlət hesabına təmin edilmişdir. Ümumiyyətlə, köçkünlərin problemlərinin həlli, müavinətlərin verilməsi, evlərin tikilməsi üçün 7 milyard manatdan çox vəsait xərclənib. Bu il məcburi köçkünlərin müavinətləri 50 faiz artırıldı. Bu, bir daha onu göstərir ki, dövlət bu kateqoriyadan olan insanlara daim öz yardımını edir”.

Qəbul zamanı cari ilin sonuna qədər yeni şəhərciklərin istifadəyə veriləcəyinə, eyni zamanda, bu istiqamətdə nəzərdə tutulan bütün işlərin ilin sonuna qədər yekunlaşacağına əminlik ifadə olunub. Qeyd edilib ki, Şirvan rayonunda 685 mənzilli qəsəbədə işlər yekunlaşır. Göyçayda 80 mənzilli binanın tikintisi sona çatır. Kürdəmirdə 565 mənzildən ibarət böyük bir qəsəbədə də tamamlama işləri aparılır. Göygöl rayonunda, ümumilikdə, 130 mənzildən ibarət üç binanın inşası davam edir. Ağcabədidə, əsasən, laçınlıların məskunlaşdığı Taxtakörpü qəsəbəsində 645 fərdi ev tikilir, 645 ailənin ilin sonuna qədər o evlərə köçürülməsi nəzərdə tutulur. Ucar rayonunda 250 ailəlik bir qəsəbənin tikintisi də ilin sonuna qədər tamamlanacaq. Beləliklə, ölkə Prezidentinin tapşırığı əsasında Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi tərəfindən inşa edilən mənzillərin sayı 3 min 700-ə çatacaq.

Qəbul zamanı bu sahədə özəl sektorun fəaliyyətinin də önəmli olduğu vurğulanıb. Bildirilib ki, iş adamları tərəfindən tikilən 1300 ailəlik “Qobu Park-2” artıq istismara verilib. Özəl sektorun vəsaiti hesabına inşa olunan



540 mənzillik daha bir qəsəbə də cari ilin sonunadək məcburi köçkünlərə təqdim ediləcək.

Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sədri Rövşən Rzayev dövlət başçısına məlumatında Sumqayıtdakı 1001 ailəlik qəsəbədə məskunlaşmanın tamamilə başa çatdığını, şəhərin 12-ci mikrorayonunun ərazisində 1005 ailəlik şəhərciyin istifadəyə verildiyini bildirib. O, həmçinin Abşeron rayonunun “Stansiya Sumqayıt” deyilən ərazisində 1250 ailəlik qəsəbənin tikintisinə başlandığını, qəzalı vəziyyətdə olan yataqxanaların sökülüb yerində yeni binaların tikiləcəyini də diqqətə çatdırıb.

Qəbul zamanı gələn ilin proqramı barədə də danışılıb. Bildirilib ki, bununla bağlı sənəd üç variantda hazırlanıb. Birinci variantda toplam 6 min 989 ailənin, ikinci variantda 6 min 934 ailənin, üçüncü variantda isə 7 min 59 ailənin yerləşdirilməsi nəzərdə tutulub. Prezident İlham Əliyev həmin variantlardan üçüncüsünün məqsədəuyğun olduğunu vurğulayıb: “Gələn il biz köçkünləri mümkün qədər çox yerləşdirməliyik. Siz bu proqrama yenidən baxın, xüsusilə, Bakı və Sumqayıt şəhərlərini nəzərə alın. Çünki ən çox köçkünlərin məskunlaşdığı şəhərlər Bakı və Sumqayıtdır. İndi biz bölgələrdə vəziyyəti yüksək dərəcədə yaxşılaşdıra bilmişik. 2007-ci ildə bütün çadır şəhərcikləri ləğv edildi və Azərbaycanın rayonlarında 100-dən çox şəhərcik salınmışdır. Ona görə bu proqramı mən, bütövlükdə, təsdiqləyirəm. Ancaq buna əlavələr edilməlidir, daha böyük həcmdə evlər tikilməlidir. O ki qaldı, buna lazım olan vəsaitə, biz vəsait taparıq. Çünki bu, bizim üçün ən prioritet məsələdir”.

Göründüyü kimi, Azərbaycanda məcburi köçkünlərin problemlərini sosial siyasətin prioritet istiqamətlərindən biri kimi müəyyən edən Prezident İlham Əliyev onların mənzil-məişət şəraitinin yaxşılaşdırılması, məşğulluğunun təmin edilməsi, maddi rifahının yüksəldilməsi üçün mühüm tədbirlər görür. Ölkə başçısının tapşırığına əsasən, zəruri infrastrukturla təmin edilən, müasir standartlara cavab verən qəsəbələr tikilərək istifadəyə verilir və ən ağır şəraitdə yaşayan məcburi köçkün ailələri yeni mənzillərlə təmin edilir.

*V.BAYRAMOV,*
*“Xalq qəzeti”*